2018-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 646045 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,6 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 faiz artaraq 608606 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 94,2 faizini təşkil edir.

2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikada tikinti sahəsində 12157 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 3 faiz artaraq 485,7 manat olmuşdur.